# *Şitan CAO:* "Azərbaycanda "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik"

"Hazırda şirkətimizlə "Azərişıq" SCADA sistemi, Qarabağ regionunun "ağıllı elektrik şəbəkəsi"nin qurulması və "yaşıl enerji"nin inkişafı sahəsində əməkdaşlıq edir. Biz Azərbaycanın "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulmasına və "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik".




AZƏRTAC xəbər verir ki, bu sözləri Hadrut qəsəbəsində jurnalistlərə müsahibə verən "Dongfang Electronics Corporation" Baş direktor müavini Şitan Cao söyləyib.

O qeyd edib ki, 2024-cü ilin noyabr ayında Çin geniştərkibli nümayəndə heyəti ilə Bakıda keçirilən COP29 konfransında iştirak edib. Bu tədbir çərçivəsində Çinin "Dongfang Electronics Corporation" şirkətinin İdarə Heyətinin sədri Fang Zhengji "Azərişıq" ASC-nin rəhbər heyəti ilə dostcasına görüşərək səmimi müzakirələr aparıb. "2024-cü ilin dekabr ayında "Azərişıq" ASC-nin nümayəndə heyəti Çinə, "Dongfang Electronics Corporation"a səfər edib. Tərəflərin qarşılıqlı səfərləri gələcək əməkdaşlıq üçün möhkəm təməl qoyub. Bu günlərdə biz Azərbaycana gəlib "Azərişıq"ın əməkdaşları ilə dərin müzakirələr apararaq müxtəlif obyektlərə baş çəkmişik. Biz gördük ki, "Azərişıq" "ağıllı şəbəkə" ("Smart grid") və "yaşıl enerji" ("Green energy") sahəsində çox yaxşı ideya və təşəbbüslərə malikdir və bu istiqamətlərdə innovativ yeniliklər həyata keçirir. "Dongfang Electronics Corporation" qlobal səviyyədə tanınmış Çin enerji şirkəti olaraq dünyanın 50-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət elektrikpaylayıcı və ötürücü sistemlər üzrə tam sənaye zəncirinə və həll yollarına malikdir, həmçinin "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulması və tikintisi, elektrik SCADA sistemlərinin inkişafı və tətbiqi, "yaşıl enerji"nin inkişafı və tikintisi sahəsində zəngin təcrübəyə sahibdir. Buna görə də "Azərişıq" ilə "Dongfang Electronics Corporation" arasında əməkdaşlıq üçün yaxşı baza və böyük potensial mövcuddur. Bu gün biz Qarabağa səfər etdik və müharibənin dağıdıcı izlərini, xarabalığa çevrilmiş evləri gördük. Lakin eyni zamanda, müharibədən sonrakı bərpa işlərinin çox sürətlə irəlilədiyinə şahid olduq. Yollar, evlər və enerji infrastrukturu da daxil olmaqla bir çox sahədə müasir texnologiyalardan istifadə edilir. Bu, Azərbaycan Prezidenti və xalqının böyük nailiyyətidir. Biz Füzuli yarımstansiyasına baş çəkdik və bu yarımstansiyanın inşasında rəqəmsal texnologiyaların tətbiq edildiyini gördük. Mütəxəssislərimiz bu texnologiyaları yüksək qiymətləndirdilər. Hazırda şirkətimizlə "Azərişıq" SCADA sistemi, Qarabağ regionunun "ağıllı elektrik şəbəkəsi"nin qurulması və "yaşıl enerji"nin inkişafı sahəsində əməkdaşlıq edir. Biz Azərbaycanın "ağıllı elektrik şəbəkələri"nin yenidən qurulmasına və "yaşıl enerji"nin inkişafına Çin təcrübəsini və gücünü qatacağımıza ümid edirik", - deyə bildirib.

Onun sözlərinə görə Azərbaycan xalqının qonaqpərvərliyi və mehribanlığı dərindən hiss edilir.

Azərbaycan. - 2025.- 17 yanvar (№ 10).- S.13.